# Azərbaycan Respublikasının Nazirlər Kabineti

# «Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçuları və xüsusi rütbəsi olan əməkdaşları üçün geyim formasının və fərqləndirmə nişanlarının təchizat normaları»nın təsdiq edilməsi haqqında

# Qərar № 101

***Bakı şəhəri, 25 iyun 2009-cu il***

«Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının hərbi geyim forması və xüsusi rütbəsi olan əməkdaşlarının geyim forması və fərqləndirmə nişanları haqqında Əsasnamə»nin və «Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının hərbi geyim forması və xüsusi rütbəsi olan əməkdaşlarının geyim forması və fərqləndirmə nişanlarının təsvirləri»nin təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 27 avqust tarixli, 623 nömrəli Fərmanının 3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. «Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçuları və xüsusi rütbəsi olan əməkdaşları üçün geyim formasının və fərqləndirmə nişanlarının təchizat normaları» təsdiq edilsin (1-27 nömrəli əlavələr).

2. Müəyyən edilsin ki, bu qərarla təsdiq edilmiş normaların tətbiqi ilə bağlı maliyyələşdirmə məsələləri Azərbaycan Respublikasının dövlət büdcəsinin Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin saxlanılması xərclərində müvafiq məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilir.

3. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə tapşırılsın ki, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış formaya uyğun olaraq, bu qərarla təsdiq edilmiş normalar üzrə təminatın cari ilin dekabr ayının 31-i vəziyyətinə dair hesabatı növbəti ilin fevral ayının 15-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin.

4. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Baş naziri***

***A. RASİ-ZADƏ***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (30 iyun 2009-cu il, № 6 (144), maddə 500) («VneshExpertService» LLC).***

---

*Xidməti istifadə üçün*

*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin*
*2009-cu il 25 iyun tarixli,*
*101 nömrəli qərarı ilə*
***təsdiq edilmişdir***

# Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçuları və xüsusi rütbəsi olan əməkdaşları üçün geyim forması və fərqləndirmə nişanlarının təchizat normaları

## (1-27 nömrəli əlavələr)